Xalq qəzeti.- 2021.- 16 iyul

# Palçıq vulkanları ekoturistlər üçün xüsusilə cəlbedicidir

***Elmi ədəbiyyatdan məlum olduğu kimi, dünyada sayı 900-ü keçməyən palçıq vulkanlarının 300-ü ölkəmizin ərazisindədir. Azərbaycan dünyada palçıq vulkanlarının nadir məskəni kimi tanınır. Təkcə Xəzər dənizində 200-ə yaxın sualtı palçıq vulkanı var. Bu vulkanlardan 120-si Azərbaycanın sektoruna düşür. Abşeron arxipelaqında vulkan mənşəli 8 ada var.***





Qeyd edək ki, istər quruda, istərsə də dənizdə mütəmadi olaraq püskürmələr baş verir. Bu, palçıq vulkanlarının sıx olduğu bölgələr üçün təbii haldır. Belə püskürmələrdən biri də iyulun 4-də axşam saatlarında Daşlı adasında baş verib. Belə ki, dərinliyi 1,48 kilometr, yanma müddəti 20-25 saniyə olan vulkan püskürməsi 8 dəqiqə davam edib. Alovun hündürlüyü 50 metrə çatıb.

Palçıq vulkanlarının yerləşdiyi ərazilər, adətən, neft-qaz ehtiyatı ilə zəngin olan sahələrə təsadüf edir. Bu səbəbdən maqmatik mənşəli vulkanlara nisbətən palçıq vulkanları daha azdır. Palçıq vulkanları həm də neft-qaz yataqlarının xərcsiz aşkar edilməsi üçün unikal təbii vasitə hesab olunur. Bununla yanaşı, həmin vulkanların gili faydalı qazıntı hesab edilir. Ölkəmizdə bu vulkanlar əsasən Abşeron yarımadasında yayılmışdır. Dünyanın 42 ölkəsində belə vulkan olduğunu nəzərə alsaq, deyə bilərik ki, Azərbaycan palçıq vulkanları ölkəsidir. Hələ 1938-ci ildə Azərbaycanda palçıq vulkanları vasitəsilə neft yataqları aşkar edilmişdir.

Vulkanik sular yod, bor, brom və palçıq birləşmələri ilə vacib mikro elementlərlə zəngin olduğundan, bəzi xəstəliklərin müalicəsində uğurla istifadə olunur. Ötən əsrin 80-cı illərində Azərbaycanın 16 tibb müəssisəsində vulkan palçığından sinir sistemi, dəri və oynaq xəstəlikləri, poliartrit, radikulit, hepatit və bir çox dəri xəstəliklərinin müalicəsində istifadə edilmişdir. Vulkan palçığı kosmetologiyada da istifadə olunur. Vulkanik palçıq mis, yod, kalium və maqnezium kimi 24 növ mineraldan ibarətdir. Buradakı palçıqların dəri xəstəlikləri və immunitet sistemi üçün faydalı olduğu və dərini gözəlləşdirdiyi barədə geniş məlumat var.

Palçıq vulkanları ekoturizm üçün də faydalıdır. 2009-cu ildə ölkəmizdə Azərbaycan, rus və ingilis dillərində kitab nəşr olundu və 25 palçıq vulkanını əhatə edən ərazidə Bakıya gələn turistlər üçün turlar təklif edildi. Azərbaycandakı palçıq vulkanları təbii abidə statusunu alıb və dövlət tərəfindən qorunur.

Respublikamızda palçıq vulkanlarının bütün formalarına rast gəlmək mümkündür. Azərbaycanda palçıq vulkanlarının olması həm də turizm imkanı deməkdir. Çünki, turistlərin belə vulkanları görə biləcəyi yerlər o qədər çox deyil.

Məlum olduğu kimi, dünyada neft-qaz ehtiyatlarının tükənməyə başladığı bir dövrdə qeyri-neft sektorunun inkişaf etdirilməsi əvvəlki dövrlərə nəzərən daha da önəmli məsələyə çevrilib. Turizm də dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat sahələrdən biridir. Azərbaycanda da turizm sektorunun inkişafı intensiv şəkildə davam etdirilir. Əlbəttə, bütün dünyanı ağuşuna alan koronavirus pandemiyasının tüğyan etməsi ilə başqa sektorlarda olduğu kimi, turizm sektorunda da önəmli geriləmələr müşahidə olundu. Ölkələr arasında gediş-gəlişin məhdudlaşdırıldığını nəzərə alaraq söyləmək olar ki, məhz turizm bu bəlanın ən çox təsir etdiyi sahədir. Lakin pandemiyanın davam etdiyi dövrdə də ölkəmizdə turizmin inkişafı üçün mühüm adddımlar atılır. Bu mənada ilk sırada işğaldan azad edilən ərazilərin abadlaşdırılmasından sonra yaranacaq turizm imkanlarını qeyd etmək olar. Belə ki, Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad olunan torpaqlarımız əvvəlki dövrlərdə olduğu kimi, quruculuq işlərindən sonra yenidən ölkəmizin turizmində böyük önəmə sahib olacaq.

Turizm sektorunun inkişafı ilə bağlı ölkəmizdə bir sıra işlər görülür. Digər sahələrdə olduğu kimi, bu sahədə də yeni layihələr hazırlanır, ölkə başçısının göstərişi ilə genişmiqyaslı tədbirlər davam etdirilir. Belə tədbirlərdən biri kimi, Abşeron rayonunun Qobustan kəndində yerləşən Palçıq Vulkanları Turizm Kompleksinin təməlinin qoyulmasını qeyd etmək olar. Belə ki, dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 22-də turizm kompleksinin təməlqoyma mərasimində iştirak etmişdilər. Bu kompleks, Bakıdan 59 kilometr cənub qərbdə yerləşir. Bu ərazi “Qılınc” palçıq vulkanının ərazisinə aiddir. Tədbir zamanı ölkə başçısının və birinci xanımın diqqətinə çatdırılıb ki, kompleksin binası yuxarıdan krater kimi görünəcək. Burada emalatxana da fəaliyyət göstərəcək. Həmçinin ekskursiyaların təşkil olunması üçün burada sərgi zalları yaradılacaq, uşaqlar üçün dərslər keçiriləcək. Bundan əlavə qeyd edilib ki, yaradılacaq turizm kompleksi yerləşdiyi ərazi baxımından da turistlərin böyük marağına səbəb olacaq. Bu mənada xüsusi vurğulamaq olar ki, kompleksin ərazisindən dünyanın ən böyük vulkanlarından biri olan “Torağay” vulkanına mənzərə açılacaq. Habelə ərazidə yerləşən digər vulkanları da görmək mümkün olacaq. Qobustan qoruğunun yaxınlığında yerləşməsi də, kompleksə marağın artmasına səbəb olan amillərdən biri kimi qeyd olunmalıdır.

Bölgənin turizm potensialı nəzərə alınaraq yaradılması planlaşdırılan turizm kompleksində, həmçinin vulkan palçığının müalicəvi əhəmiyyəti də turistlərə təbliğ olunacaq. Turistlər burada palçığı test edə biləcəklər.

Turizm sektorunun intensiv inkişaf etməsi və əhatə dairəsinin genişlənməsi bu sektoru iqtisadi tərəqqinin əsas sahələrindən birinə çevirib. Turizm sahəsinin inkişaf etdirilməsi həm də yeni iş yerlərinin, o cümlədən turizm müəssisələrinin yaradılması deməkdir. Yeni təməli qoyulan Palçıq Vulkanları Turizm Kompleksi ölkəmizdə turizm sektorunun inkişafına dövlət səviyyəsində xüsusi diqqət yetirildiyinin göstəricisidir. Bu kompleksin ərazisində kvadrotsikl meydanı, piyada yürüş zolaqları, zipline və baxış qülləsi, avtodayanacaq, suvenir dükanları, eləcə də müalicəvi vannaların yaradılması nəzərdə tutulur.

Turizm kompleksinin təməlinin qoyulması ilə birlikdə, əraziyə gələn yolların yenilənməsi prosesi də start götürüb. Bu mənada yol infrastrukturunun inkişafı çərçivəsində Qobustan qoruğundan “Qılınc” vulkanı və ətraf ərazilərdəki vulkanlara gediş-gəlişi asanlaşdıracaq, eləcə də Bakı-Qobustan-Palçıq vulkanları turizm deltasının yaranması ilə nəticələnəcək 20 kilometrlik yolun çəkilişi planlaşdırılır. Bu, koronavirus pandemiyasından əvvəl özünün ən parlaq dövrlərindən birini yaşayan Azərbaycan turizminin pandemiyadan sonrakı gələcək inkişafı üçün nəzərdə tutulan mühüm infrastruktur layihələrindəndir. Və əminliklə söyləmək olar ki, Palçıq Vulkanları Turizm Kompleksinin yaradılması ölkəmizdə turizm sektorunun inkişafına öz töhfələrini verəcək.

***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***